*Qədim Diyar*
May 2026, Cild. 8, Say 5, s. 226–230
*Ancient Land*
May 2026, Vol. 8, Issue 5, pp. 226–230
DOI: https://doi.org/10.36719/2706-6185/60/226-230

# Şomutəpə mədəniyyətinin Gəncə-Qazax bölgəsində yayılması və xüsusiyyətləri

**Aişə İsmayılzadə**

***Xülasə.*** *Məqalədə Gəncə-Qazax bölgəsində yayılmış Şomutəpə mədəniyyətinin əsas xüsusiyyətləri, yayılma arealı və tarixi əhəmiyyəti tədqiq edilmişdir. Araşdırmada Şomutəpə, Göytəpə, Hacıələmxanlı, Töyrətəpə və digər neolit yaşayış yerlərindən əldə olunmuş arxeoloji materiallar əsasında bölgənin erkən əkinçi tayfalarının təsərrüfat həyatı, memarlıq ənənələri və maddi mədəniyyəti təhlil olunmuşdur. Həmçinin, radiokarbon analizləri, arxeobotanik və osteoloji materiallar əsasında Gəncə-Qazax bölgəsində əkinçilik və maldarlığın formalaşma mərhələləri araşdırılmışdır. Müəyyən edilmişdir ki, Şomutəpə mədəniyyəti Cənubi Qafqazın ən qədim istehsal təsərrüfatlı mədəniyyətlərindən biri olmuş və regionda oturaq həyat tərzinin yaranmasında mühüm rol oynamışdır. Tədqiqat zamanı həmçinin Şomutəpə mədəniyyətinin Ön Asiyanın erkən əkinçi mədəniyyətləri ilə əlaqələri və yerli inkişaf xüsusiyyətləri müqayisəli şəkildə öyrənilmişdir. Eyni zamanda Göytəpə və Hacıələmxanlı abidələrinin Cənubi Qafqaz Neolitinin xronologiyasının müəyyən edilməsində xüsusi əhəmiyyət daşıdığı vurğulanmışdır.*

***Açar sözlər:*** *Şomutəpə mədəniyyəti, Gəncə-Qazax bölgəsi, Neolit dövrü, erkən əkinçilik, Göytəpə yaşayış yeri*

---

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: aisha.ismayilzada.vuqar@bsu.edu.az
Daxil oldu: 30 Yanvar 2026; Qəbul edildi: 19 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Spread and Characteristics of the Shomutepe Culture in the Ganja-Gazakh Region

**Aisha Ismayilzade**

***Abstract.*** *The article studies the main characteristics, distribution area and historical significance of the Shomutapa culture spread in the Ganja-Gazakh region. The study analyzes the economic life, architectural traditions and material culture of the early agricultural tribes of the region based on archaeological materials obtained from Shomutapa, Goytepa, Hajialamkhanli, Toyratepa and other Neolithic settlements. The article studies the stages of the formation of agriculture and cattle breeding in the Ganja-Gazakh region based on radiocarbon analyses, archaeobotanical and osteological materials. It was determined that the Shomutapa culture was one of the oldest agricultural cultures of the South Caucasus and played an important role in the emergence of a sedentary lifestyle in the region.*

*During the study, the relations of the Shomutapa culture with the early agricultural cultures of the Near East and the local development characteristics were also studied in a comparative manner. The article emphasizes that the Goytepa and Hajialamkhanli monuments are of particular importance in determining the chronology of the South Caucasus Neolithic.*

***Keywords:*** *Shomutape culture, Ganja-Gazakh region, Neolithic period, Early agriculture, Goytepe settlement*

---

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: aisha.ismayilzada.vuqar@bsu.edu.az
Received: 30 Yanvar 2026; Accepted: 19 Aprel 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Azərbaycanın qədim tarixində Neolit dövrü mühüm sosial-iqtisadi dəyişikliklərlə xarakterizə olunur. Bu dövrdə ibtidai icma cəmiyyətində mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçid baş vermiş, əkinçilik və maldarlıq əsas təsərrüfat sahələrinə çevrilmişdir. Neolit dövrü həmçinin oturaq həyat tərzinin formalaşması, ilk kənd tipli yaşayış məskənlərinin yaranması və maddi mədəniyyətin inkişafı ilə səciyyələnir. Azərbaycanın bu proseslərin daha erkən müşahidə olunduğu bölgələrindən biri Gəncə-Qazax regionudur.

Gəncə-Qazax bölgəsində yerləşən Şomutəpə, Göytəpə, Hacıələmxanlı, Töyrətəpə, Qarğalartəpəsi və digər yaşayış yerləri Cənubi Qafqazın ən qədim əkinçi-maldar tayfalarının həyatını öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır. Bu abidələr əsasında formalaşdırılmış Şomutəpə mədəniyyəti e.ə. VI minilliyin sonu – V minilliyin əvvəllərinə aid edilir və Azərbaycanın ən qədim neolit mədəniyyətlərindən biri hesab olunur (Narimanov, 1987, s. 45).

## Tədqiqat

Şomutəpə mədəniyyətinin tədqiqi yalnız Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın neolitləşmə prosesinin öyrənilməsi baxımından da mühüm əhəmiyyətə malikdir. Son illərdə aparılan beynəlxalq arxeoloji ekspedisiyalar, radiokarbon analizləri və arxeobotanik tədqiqatlar bölgədə erkən əkinçilik ənənələrinin daha qədim və inkişaf etmiş xarakter daşıdığını göstərmişdir (Lyonnetvə b., 2012, s. 87).

**Şomutəpə mədəniyyətinin öyrənilmə tarixi.** Özünəməxsus xüsusiyyətləri ilə seçilmiş Şomutəpə abidələri "Şomutəpə arxeoloji mədəniyyəti" adı ilə tanınır. Bu mədəniyyət ilk dəfə İ.H.Nərimanov tərəfindən ədəbiyyata gətirilmişdir. Şomutəpə mədəniyyətinin öyrənilməsi XX əsrin ikinci yarısından etibarən başlamışdır. İlk sistemli arxeoloji qazıntılar Ağstafa rayonu ərazisində yerləşən Şomutəpə yaşayış yerində İdeal Nərimanov tərəfindən aparılmışdır. Tədqiqatlar zamanı burada dairəvi planlı tikililər, əmək alətləri, keramika nümunələri və təsərrüfat tikililəri aşkar edilmişdir. Şomutəpə ilə yanaşı bir çox həmdövr abidələrdən tapılmış eyni divar qalıqları o dövr üçün dairəvi binaların səciyyəvi olduğuna işarə edir (Narimanov, 1987, s. 52).

İdeal Nərimanov Şomutəpə yaşayış yerində aşkar edilmiş materialları təhlil edərək burada formalaşmış mədəniyyətin Yaxın Şərqin erkən əkinçi mədəniyyətləri ilə müəyyən əlaqələrə malik olduğunu qeyd etmişdir. Bununla yanaşı, tədqiqatçı bölgənin yerli xüsusiyyətlərinin üstünlük təşkil etdiyini də vurğulamışdır.

1970–1980-ci illərdə Gəncə-Qazax bölgəsində aparılan arxeoloji tədqiqatlar nəticəsində Töyrətəpə, Qarğalartəpəsi və Baba Dərviş kimi yaşayış yerləri də öyrənilmişdir. Bu abidələrdə aşkar olunan maddi mədəniyyət nümunələri Şomutəpə mədəniyyətinin geniş coğrafiyada yayıldığını sübut etmişdir.

XXI əsrin əvvəllərindən etibarən Göytəpə yaşayış yerində beynəlxalq arxeoloji ekspedisiyalar fəaliyyətə başlamışdır. Azərbaycan, Fransa və Yaponiya alimlərinin birgə apardıqları qazıntılar nəticəsində regionun neolit dövrü tarixinin öyrənilməsində mühüm yeniliklər əldə edilmişdir. Göytəpədə mədəni təbəqənin qalınlığının 11 metrə çatması burada uzunmüddətli və fasiləsiz yaşayışın mövcud olduğunu göstərmişdir (Müseyibli, 2014, s. 118).

Hacıələmxanlı yaşayış yerində aparılmış radiokarbon analizləri isə regionda erkən neolit mərhələsinin daha qədim olduğunu sübut etmişdir. Tədqiqatçılar bu abidənin e.ə. VI minilliyin əvvəllərinə aid olduğunu qeyd etmişlər (Lyonnet və b., 2012, s. 89).

**Şomutəpə mədəniyyətinin yayılma arealı və xronologiyası.** Şomutəpə mədəniyyəti əsasən Kür çayının orta hövzəsində yayılmışdır. Bu mədəniyyətin izlərinə Ağstafa, Qazax, Tovuz, Şəmkir və Gəncə ərazilərində rast gəlinmişdir. Yaşayış yerlərinin çaylara yaxın ərazilərdə yerləşməsi əkinçilik və maldarlıq üçün əlverişli təbii şəraitlə bağlı olmuşdur.

Şomutəpə dairəvi formaya malik, diametri 100 m olan kiçik təpədir. Mədəni təbəqənin qalınlığı orta hesabla 1 m-dir. Dairəvi planlı evlər (diametri 3 m və daha artıq) və təsərrüfat tikililəri (dərinliyi 2 m) əsasən çiy kərpicdən inşa edilmişdir.

Şomutəpədən 3 km şərqdə Töyrətəpə yerləşir. Ağstafa rayonunun Aşağı Göycəli kəndinin qərb kənarında yerləşən Töyrətəpə ərazisində 1961-ci ildən 1965-ci ilə qədər aparılan daimi qazıntılar nəticəsində mədəni təbəqənin ümumi qalınlığı təxminən 5,5 metr olan beş struktur üfüqi aşkar edilmişdir. Dairəvi konstruksiyaları ehtiva edən dörd ardıcıl alt təbəqə eramızdan əvvəl II-I minilliyin sonlarına aid nazik bir təbəqə ilə örtülmüşdür.

Qarğalartəpəsi təpəsi Şomutəpə mədəniyyətinin ən böyük yaşayış məskənlərindən biridir və sonuncudan 8 km şərqdə yerləşir. Mədəni təbəqənin aşağı qalınlığında dörd tikinti üfüqi tədqiq edilmiş, divarlarının yaxınlığında ocaqlar olan dairəvi planlı yaşayış yerlərinin qalıqları aşkar edilmişdir. Tikililərin döşəmələri və divarları gil ilə örtülmüş, bəzi döşəmələr qırmızı-bənövşəyi rəngə boyanmışdır.

Göytəpə yaşayış yeri regionun ən iri neolit məskənlərindən biri hesab olunur. Abidənin ümumi sahəsi 2 hektardan artıqdır. Burada çoxsaylı yaşayış tikililəri, təsərrüfat quyuları, ocaq yerləri və əmək alətləri aşkar edilmişdir (Quliyev, 2013, s. 74).

Radiokarbon analizləri Şomutəpə mədəniyyətinin xronoloji çərçivəsini daha dəqiq müəyyən etməyə imkan vermişdir. Göytəpə və Hacıələmxanlıdan əldə olunan analiz nəticələri bu mədəniyyətin e.ə. 6000–5600-cü illər arasında mövcud olduğunu göstərir (Helwing, 2010, s. 81).

Tədqiqatçılar Şomutəpə mədəniyyətinin bir neçə inkişaf mərhələsi keçdiyini qeyd edirlər:
- Erkən mərhələ,
- İnkişaf mərhələsi,
- Son mərhələ.

Bu mərhələlər əsasən keramika, memarlıq və əmək alətlərinin inkişaf xüsusiyyətlərinə görə fərqlənir.

**Memarlıq xüsusiyyətləri.** Şomutəpə mədəniyyətinin əsas xüsusiyyətlərindən biri dairəvi planlı yaşayış tikililəridir. Tikililər əsasən çiy kərpic və gil materialından inşa edilmişdir. Evlərin diametri adətən 3–5 metr arasında dəyişmişdir. Göytəpə yaşayış yerində bəzi tikililər bir-birinə bitişik formada salınmışdır ki, bu da kollektiv icma həyatının mövcud olduğunu göstərir. Evlərin içərisində ocaq yerləri, taxıl saxlama qabları və təsərrüfat hissələri müəyyən edilmişdir (Baxşəliyev, 2007, s. 96).

Arxeoloqlar yaşayış yerlərində çoxsaylı təsərrüfat quyuları və anbar tipli tikililər də aşkar etmişlər. Bu tapıntılar bölgədə artıq inkişaf etmiş oturaq kənd həyatının mövcud olduğunu göstərir. Göytəpədə mədəni təbəqənin bəzi hissələrdə 11 metr qalınlığa malik olması yaşayışın uzun müddət fasiləsiz davam etdiyini sübut edir. Bu xüsusiyyət Göytəpəni Cənubi Qafqazın ən mühüm neolit yaşayış yerlərindən birinə çevirmişdir (Müseyibli, 2014, s. 121).

**Təsərrüfat həyatı və erkən əkinçilik.** Şomutəpə mədəniyyətinin iqtisadi əsasını əkinçilik və maldarlıq təşkil etmişdir. Arxeobotanik analizlər zamanı buğda, arpa və paxlalı bitkilərin qalıqları aşkar edilmişdir. Bu tapıntılar bölgədə artıq sistemli əkinçiliyin formalaşdığını göstərir. Göytəpədə aşkar olunmuş daş oraq dişləri üzərində istifadə izlərinin öyrənilməsi onların taxıl biçinində istifadə olunduğunu sübut etmişdir. Bundan əlavə, yaşayış yerlərində çoxsaylı dən daşları, həvənglər və üyüdücü alətlər aşkar olunmuşdur (Quliyev, 2013, s. 81).

Maldarlıq da mühüm təsərrüfat sahəsi olmuşdur. Osteoloji materiallar qoyun, keçi, iribuynuzlu mal-qara və donuz saxlanıldığını göstərir (Narimanov, 1987, s. 61). Tədqiqatçılar hesab edirlər ki, heyvandarlığın inkişafı oturaq həyatın daha da möhkəmlənməsinə səbəb olmuşdur. Əkinçilik və maldarlığın paralel inkişafı bölgədə istehsal təsərrüfatının tam formalaşdığını göstərir. Bu isə ibtidai icma cəmiyyətinin sosial-iqtisadi inkişafında mühüm mərhələ hesab olunur.

**Maddi mədəniyyət nümunələri.** Şomutəpə mədəniyyətinin maddi mədəniyyəti zənginliyi ilə seçilir. Keramika nümunələri əsasən əl ilə hazırlanmışdır. Gil qabların hazırlanmasında saman qarışıqlı gildən istifadə edilmişdir. Qablar aşağı temperaturda bişirilmiş və bəzi nümunələr cilalanmışdır. Göytəpə keramikası texnoloji baxımdan bir neçə inkişaf mərhələsi keçmişdir. Erkən mərhələdə sadə formalı qablar üstünlük təşkil etdiyi halda, sonrakı mərhələlərdə daha keyfiyyətli və simmetrik qablar meydana çıxmışdır (Ələkbərov, 2018, s. 24). Bəzi qabların üzərində həndəsi ornamentlər və dekorativ elementlər müşahidə olunur. Bu ornamentlər ibtidai insanların estetik dünyagörüşünü əks etdirir. Daş alətlər arasında obsidian xüsusi yer tutur. Obsidian əsasən Kiçik Qafqaz və Şərqi Anadolu yataqlarından əldə edilmişdir. Bu fakt regionlararası əlaqələrin və ilkin mübadilə münasibətlərinin mövcud olduğunu göstərir. Sümükdən hazırlanmış bizlər, iynələr və digər əmək alətləri sənətkarlığın müəyyən inkişaf səviyyəsinə çatdığını sübut edir (Lyonnet və b., 2012, s. 93).

**Mənəvi mədəniyyət və dini təsəvvürlər.** Şomutəpə mədəniyyətinin daşıyıcılarının mənəvi dünyası haqqında məlumatlar əsasən arxeoloji materiallar əsasında müəyyən edilir. Yaşayış yerlərində aşkar olunmuş ocaq yerləri, xüsusi təyinatlı tikililər və bəzi ritual xarakterli tapıntılar qədim insanların dini təsəvvürlərə malik olduğunu göstərir. Bəzi tədqiqatçılar dairəvi formalı tikililərin müəyyən kult xarakteri daşıdığını qeyd edirlər. Ocaq kultu Neolit dövrü tayfalarının mənəvi həyatında mühüm yer tutmuşdur. Ocaq ailə və icma birliyinin simvolu hesab edilmişdir. Keramika üzərindəki bəzi ornamentlər və simvolik işarələr də ilkin dini təsəvvürlərlə əlaqələndirilir (Baxşəliyev, 2011, s. 143).

**Şomutəpə mədəniyyətinin Ön Asiya ilə əlaqələri.** Tədqiqatçılar Şomutəpə mədəniyyətinin Ön Asiyanın erkən əkinçi mədəniyyətləri ilə müəyyən bağlılıqlarını qeyd edirlər. Çatalhöyük, Hassuna və Hacılar mədəniyyətləri ilə oxşar memarlıq və keramika xüsusiyyətləri müşahidə olunur. Obsidianın geniş yayılması bölgələrarası iqtisadi və mədəni əlaqələrin mövcud olduğunu göstərir. Bu

əlaqələr yalnız iqtisadi deyil, həm də mədəni təsirlərin yayılmasına şərait yaratmışdır. Gəncə-Qazax bölgəsində aşkar olunmuş arxeoloji materiallar bu mədəniyyətin yerli xüsusiyyətlərə malik müstəqil inkişaf yolu keçdiyini sübut edir. Bölgənin təbii-coğrafi şəraiti və yerli ənənələri burada fərqli inkişaf modelinin formalaşmasına səbəb olmuşdur (Helwing, 2010, p. 84).

**Şomutəpə mədəniyyətinin Cənubi Qafqaz tarixində yeri.** Şomutəpə mədəniyyəti Cənubi Qafqazın ən qədim istehsal təsərrüfatlı mədəniyyətlərindən biri hesab olunur. Bu mədəniyyət regionda oturaq həyatın, ilkin memarlığın, əkinçiliyin və sənətkarlığın formalaşmasında mühüm rol oynamışdır. Göytəpə və Hacıələmxanlı yaşayış yerlərində aparılan tədqiqatlar göstərir ki, Gəncə-Qazax bölgəsi Neolit dövründə Cənubi Qafqazın mühüm mədəni mərkəzlərindən biri olmuşdur. Bölgədə formalaşmış erkən əkinçi ənənələri sonrakı Eneolit və Tunc dövrü mədəniyyətlərinin inkişafına ciddi təsir göstərmişdir. Şomutəpə mədəniyyəti Azərbaycan ərazisində erkən dövlətçilik və sosial münasibətlərin ilkin formalarının meydana gəlməsi üçün mühüm zəmin yaratmışdır.

## Nəticə

Şomutəpə mədəniyyəti Azərbaycanın qədim tarixində mühüm yer tutur. Gəncə-Qazax bölgəsində yerləşən neolit yaşayış yerləri regionda erkən oturaq həyatın, istehsal təsərrüfatının və ilkin memarlıq ənənələrinin formalaşmasını əks etdirir. Arxeoloji tədqiqatlar göstərir ki, bu mədəniyyətin daşıyıcıları inkişaf etmiş əkinçilik və maldarlıq təsərrüfatına malik olmuş, zəngin maddi və mənəvi mədəniyyət yaratmışlar. Göytəpə, Şomutəpə və Hacıələmxanlı kimi yaşayış yerləri yalnız Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın Neolit tarixinin öyrənilməsində mühüm elmi əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Baxşəliyev, V. B. (2007). *Azərbaycan arxeologiyası*. Elm.
2. Baxşəliyev, V. B. (2011). *Azərbaycanın qədim tayfalarının mənəvi mədəniyyəti*. Elm və Təhsil.
3. Quliyev, F. Ə. (2013). *Neolit dövrü Azərbaycanı*. Elm və Təhsil.
4. Müseyibli, N. Ə. (2014). *Azərbaycanın qədim yaşayış məskənləri*. Elm və Təhsil.
5. Müseyibli, N. Ə. (2017). *Qafqazın Neolit mədəniyyətləri*.
6. Nərimanov, İ. Q. (1987). *Şomutəpə mədəniyyəti*. Elm.
7. Nərimanov, İ. Q. (1992). *Azərbaycanın qədim əkinçi-maldar tayfaları*.
8. Axundov, T. İ. (2008). *Neolit i eneolit Yujnogo Kavkaza*. Elm.
9. Lyonnet, B., Guliyev, F., Helwing, B., & Aliyev, T. (2012). Ancient Kura 2010–2011 excavations at Göytepe. *Paléorient, 38*(2), 85–103.
10. Helwing, B. (2010). *The Neolithic of the South Caucasus*.
11. Narimanov, İ. Q. (1987). *Drevneyşaya zemledelçeskaya kultura Azerbaydjana*.
12. Munchaev, R. M. (1975). *Kavkaz na zare bronzovogo veka*. Nauka.